# POSTMÜHARİBƏ DÖVRÜNDƏ QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARININ İNKİŞAFININ ƏSAS ASPEKTLƏRİ

**Dilbər Fərəcova**

*Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı*
*faracova.dilbar@mail.ru*

Xalqımız hazırda tarixinin ən şanlı dövrünü yaşayır. Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi ilə qalib ordumuz 27 sentyabr 2020 – ci il tarixində başlatdığı əks – hücum əməliyyatı ilə cəmi 44 gün ərzində xalq – iqtidar birliyindən doğan "Dəmir Yumruq"vasitəsilə düşmənin başını əzərək, tarixi ədaləti bərqərar etdi, xalqımızın qürurunu gücləndirdi, şəhidlərimizin, Xocalıda, Başlıbeldə və yüzlərlə digər şəhər və kəndlərimizdə erməni faşistləri tərəfindən qətlə yetirilən soydaşlarımızın qisasını alaraq torpaqlarımızın 30 illik işğalına son qoydu. Möhtərəm Prezidentimizin dediyi kimi, bu qalibiyyətlə Azərbaycan nəinki BMT-nin illərlə kağız üzərində qalan qətnamələrinin icrasını təmin etdi, həm də regionumuzda yeni reallıqlar yaratdı. Bu gün həmin yeni reallıqların açdığı imkanlardan istifadə edərək Azərbaycanımızın iqtisadi qüdrətini və gücünü daha da artırmaq, 30 il ərzində Ermənistan tərəfindən talan edilmiş milli sərvətlərimizdən səmərəli istifadə etməklə, yeni reallıqlar şəraitində iqtisadi inkişaf və tərəqqi modeli formalaşdırmaq və inkişaf etdirmək dövlətimizin qarşısında duran prioritet vəzifələrdəndir.

Müharibənin başa çatmasından sonra Respublikamızda dayanıqlı sosial iqtisadi inkişafın təmin olunması və işğaldan azad olunmuş ərazilərdə bərpa – quruculuq işlərinin həyata keçirilməsi dövlətin diqqət mərkəzindədir. Belə ki, cənab Prezident İlham Əliyev ötən dövr ərzində iştirak etdiyi bütün beynəlxalq və yerli platformalarda torpaqlarımızın işğaldan azad edilməsinin son otuz ilin ən mühüm tarixi hadisəsi olduğunu qeyd edərək, azad edilən ərazilərdə quruculuq işlərinin sürətlə aparılmasını, əzəli torpaqlarımızda tariximizi, mədəniyyətimizi və iqtisadiyyatımızı yenidən canlandırmaq üçün bu ərazilərə mərhələli şəkildə sektorlar üzrə investisiya qoyuluşlarının və digər sərmayələrin cəlb edilməsini qarşıya qoyulan mühüm vəzifə kimi qiymətləndirmişdir.

Hazırda işğaldan azad edilən ərazilərdə bərpa olunan enerji mənbələrindən istifadə ilə bağlı "yaşıl enerji" zonalarının yaradılması məqsədilə xarici investisiyaların cəlb olunması üçün investorlarla müzakirələr aparılır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının potensialı elektroenergetika, o cümlədən bərpa olunan enerji mənbələri sahəsinə xarici və yerli investorların diqqətini getdikcə daha cox cəlb edir. "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin 2019-cu il 29 may tarixli Sərəncamında elektroenergetika sahəsinə özəl investisiyaların cəlb edilməsi üçün zəruri tədbirlərin görülməsi maliyyələşdirilən vəzifələrin mühüm istiqamətlərindən biri kimi qeyd edilir. Energetika Nazirliyi tərəfindən hazırlanan ilkin layihədə özəl investisiyalara istiqamətlənən inkişaf modeli energetika sektorunun uzunmüddətli inkişaf strategiyasının əsasını təşkil edir və 2050-ci ilədək dövrü əhatə edir. 2030-cu ilə qədər elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrinin payının 30%-ə çatdırılması prioritet olaraq müəyyənləşdirilib. Bundan başqa, 2030-cu ilədək təqribən 1500 meqavat həcmində yeni gücün istifadəyə verilməsi və bu layihənin məhz özəl investisiyalar hesabına reallaşması planlaşdırılır. Həmçinin bu sahədə pilot layihələrin də həyata keçirilməsinə başlanıb.

Kəlbəcər və Laçın rayonlarında külək enerjisinin, Zəngilan və Cəbrayıl rayonlarında isə daha çox günəş enerjisinin böyük potensialı mövcuddur. Hesablamalara görə yalnız Kəlbəcər və Laçın rayonunda bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Şuşa, Ağdam və Kəlbəcər rayonlarında ümumilikdə 308 kilometr elektrik verilişi xəttinin çəkilməsi və yeni yarımstansiyaların tikilməsi ilə 110 kilovatlıq şəbəkənin yaradılması, eyni zamanda "Xudafərin" və "Qız qalası" su elektrik stansiyalarının inşası da nəzərdə tutulmuşdur.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında Prezidentin tapşırıqlarına uyğun olaraq kənd təsərrüfatının inkişafı ilə bağlı həyata keçirilən işlərin uğur qazanacağına şübhə yoxdur. Çünki, cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı işğaldan azad olunan torpaqlarda əkinçilik və heyvandarlığın inkişafı üçün bütün potensialından istifadə etmək gücündədir. Belə ki, dövlət fermerlərin tələbatını ödəmək məqsədilə onlara minlərlə kənd təsərrüfatı texnikası, həmçinin minlərlə baş damazlıq heyvanların güzəştli şərtlərlə satışını maliyyələşdirib. Digər əhəmiyyətli amil isə ölkəmizə dost ölkələrin – Türkiyə, Pakistan,

İsrail, İtaliya, Çin, Özbəkistan, Qazaxıstan, Cənubi Koreya və başqa dövlətlərin şirkətləri ilə əməkdaşlıq sayəsində kənd təsərrüfatında tətbiq edilən müasir texnologiyalardan istifadə edilməsidir.

Bölgədə dağ-mədən sənayesinin inkişafı üçün də geniş imkanlar vardır. Belə ki, Kəlbəcər və Zəngilan rayonlarında qızıl, mis, gümüş, civə və xromit ehtiyatları, Cəbrayıl rayonunda yerləşən "Yəşəm" və "Xalsedon" yataqları zərgərlik sahəsini inkişaf etdirməyə imkan verir.

Digər tərəfdən Dövlət Turizm Agentliyi tərəfindən işğaldan azad edilmiş ərazilərdə turizmin inkişaf strategiyası hazırlanmışdır. Dünyanın müxtəlif ölkələrini təmsil edən turizm şirkətlərinin nümayəndələrinin bölgəyə səfərləri təşkil edilmiş, onlara regionun imkanları haqqında ətraflı məlumat verilmiş, həmçinin turizm sahəsini inkişaf etdirmək üçün onlarla fikir mübadiləsi aparılmışdır. Mütəxəssislərin qənaətinə görə, Şuşa, Laçın və Kəlbəcərin dağ turizmi, ekoturizmi, müalicəvi turizm, mədəni turizm üçün zəngin potensialı Qarabağın iqtisadi dirçəlişinə böyük töhfə verəcəkdir.

Regionun turizm potensialını təhlil edərkən Şuşanın imkanları daha cəlbedici qiymətləndirilir. Şuşada mədəni tədbirlərin təşkili ilə yanaşı festival tipli turizm məhsullarının təqdimatı da edilə bilər. Laçın-Kəlbəcər istiqamətində təbiət, qış turizmi və sağlamlıq turizmi, Qubadlı və Zəngilanda mədəniyyət və təbiət, Füzuli, Ağdam, Cəbrayılda mədəniyyət və işğalın nəticələrini əks etdirən bəzi tikililəri saxlamaqla turistlər üçün nümayiş etdirmək nəzərdə tutulur. Gələcəkdə turist axınlarının coğrafiyasını genişləndirmək planlaşdırılır. Belə ki, Xudafərin körpüsü istiqamətindən İrandan, Naxçıvan istiqamətindən isə Türkiyədən turistlərin gəlməsi mümkün olacaq. Qarabağ və Şərqi Zəngəzura bu iki istiqamətdən turist axını gözlənilir. Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər"in təsdiq edilməsi haqqında Sərəncamda da qeyd olunduğu kimi, əldə edilən iqtisadi üstünlük, hər şeydən öncə, işğaldan azad edilmiş ərazilərin mövcud iqtisadi potensialından xalqımızın rifahı üçün tam istifadə olunmasına geniş şərait yaradacaqdır.

Beləliklə, fikirlərimizi ümumiləşdirsək əminliklə deyə bilərik ki, iqtisadi rayonlar üzrə yeni bölgü faydalı iş əmsalını daha da artırmaq potensialı formalaşdıracaqdır. "Yeni bölgü uzaqgörən strateji yanaşma, planauyğun reinteqrasiya faktıdır və sabahımızla bağlı daha nikbin proqnozlara əsas verir" [10]. Müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının potensialından səmərəli istifadə etməklə Azərbaycan alternativ və bərpa oluna bilən enerji mənbələrinin tətbiqi ilə dünyada enerji ixracatçısı rolunu daha da gücləndirəcək, kənd təsərrüfatı sahəsində müasir texnologiyalardan istifadə etməklə öz ərzaq təhlükəsizliyini təmin edəcək, turizmi inkişaf etdirərək dövlətimizin tanınmasına və iqtisadi inkişafımıza töhvə verəcək, "Zəngəzur dəhlizi" vasitəsilə Şərq-Qərb və Cənub-Şimal marşrutları üzərində yerləşən beynəlxalq əhəmiyyətli qovşaq olaraq dünyada sülh və əminamanlığı, ədaləti təbliğ edən ən inkişaf etmiş, siyasi və iqtisadi cəhətdən ən qüdrətli ölkələrdən birinə çevriləcəkdir.